# Davamız Azərbaycan davasıdır!



Fəzail İsmayıl Böyükkişi

Bütün Azərbaycan Ocaqları, Abbas Lisaninin hüquqlarının müdafiə komitəsinin sədri

## II hissə

(əvvəli ötən saylarımızda)

***Bu əsərimin 1-ci hissəsində Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 137-ci il dönümü ilə bağlı onun həyat və fəaliyyətinə elmi yaradıcılığına ətraflı diqqət yetirdik. Eyni zamanda hazırda Güney Azərbaycanında fars mola rejiminin təyin etdiyi məhkəməsi əsasında günahsız olaraq 15 il azadlıqdan məhrum edilən, iki ildə ailəsi ilə birlikdə siyasi fəaliyyətlə məşğul olmasın deyə Oğuz Türklərinin az yaşadığı Ərdəbildən uzaq məsafədə yerləşən Yəzdə sürgün etmişlər. Buna görə də 'Davamız Azərbaycan davasıdır! " əsərinə 1953- cü ildə Məhəmməd Əmin Rəsulzadənin Azərbaycan Demokratik Cumhuriyyətinin 35-ci il dönümü münasibətilə Azadlıq Radiosunda etdiyi çıxışın son iki abzasını epiqraf olaraq vermişəm. Eyni zamanda, əsərin 1-ci hissəsində keçən tarixi müddət ərzində bütün siyasi xadimlərin fəaliyyətini təhlil edərək Abbas Lisanini Məhəmməd Əmin Rəsulzadənin ən layiqli davamçısı adlandıraraq belə nəticəyə gəlmişəm ki, Abbas Lisani Məhəmməd Əmin Rəsulzadənin çoxşaxəli elmi irsindən lazımınca bəhrələnən millət fədaisi, azadlıq aşiqi olduğundan onun ən layiqli və yenilməz davamçısıdır. Ona görə də bu əsərimin 2- ci hissəsi haqqında da söhbət açmaqdan qabaq istəkli "Türküstan" sevən oxucularımın diqqətinə onu çatdırmaq istəyirəm ki, Abbas Lisani haqqında I-ci hissədə söylədiyim fikirləri əsərin II-ci hissəsində də epiqraf əvəzi yenə də verirəm.***

"Davamız Azərbaycan davasıdır!"-əsərimin II-ci hissəsində Abbas Lisaninin anadan olmasının 54-cü il dönümü münasibətilə (O 1967-ci ildə fevral ayının 18-də Güney Azərbaycanın Ərdəbil şəhərində anadan olmuşdur) həyat və yaradıcılığı ictimai və siyasi fəaliyyəti haqqında ətraflı məlumat verməyi eləcə Məhəmməd əmin bəyin çaxşaxalı irsindən bu günümz üçün mühüm olan hissələri onun və məslək daşlarının diqqətinə çatdırım. Onu da deyim ki Abbas Lisani də milyonlarla həmvətənlisi Oğuz Türkləri kimi ibtidai və orta təhsilini şovonist fars molla rejiminin türklərə qarşı antimilli siyasəti nəticəsində fars dilində almağa məcbur olmuşdur. Bu da hələ uşaq yaşlarından fars şovinist tərəfindən Abbas Lisaniyə öz doğma Türk dilinə hörmətsizlik edilməsi nəticəsində türk dilində təhsil ala bilmədiyi üçün olduqca ağır təsir göstərmişdir. Ona görə də Abbas Lisani bu haqsızlığa qarşı öz haqq səsini hələ gənc yaşlarından müxtəlif qəzet və jurnalların səhifələrində ucaltmış, oğuz türklərini ictimai yerlərdə öz ana dilinin müdafiəsi uğrunda mübarizəyə səsləmişdir. Beləliklə, Məhəmməd Əmin Rəsulzadənin və Abbas Lisaninin gənclik illərində ilk qələm təcrübələrinə diqqət yetirəndə görürük ki, hər iki millət aşiqini və vətən fədaisini öz ana dilinin saflığı daha çox düşündürmüşdür. Axı hər bir dil məxsus olduğu millətin, onun varlığını təcəssüm etdirir. Məni daha çox düşündürür. "Ana dilim" şerimdə bu haqda belə demişəm:

**Mən də sənin bir övladın,**
**Gəl məni də sına dilim.**
**Öz varlığım, öz nəfəsim,**
**Ana dilim, ana dilim!**

**Mən-mən deyən zorba hanı?**
**Başa keçən torba hanı?**
**Türk dilimə xorbxanı,**
**Diri-diri yana, dilim!**



**Gecə-gündüz söz kəsirəm,**
**Yüz bir sözdən yüz kəsirəm.**
**Hara belə tələsirəm-**
**Ömrüm yetməz sona dilim!**

Tarixlər boyu hər bir millətin mütəfəkkirləri, filosofları, şairləri, ictima-siyasi xadimləri milli davalarını öz ana diliində aparmaışdılar, aparırlar və aparacaqlar da. M.Ə.Rəsulzadə "Azərbaycan davası" əsərində deyirdi: Bu dava tarixi və milli bir davadır. Bu dava nə hökümət, nə parlament səviyyəsində ölçüləcəkkiçicik bir dava deyil, nə də bu davanı üç-beş - qısır kişinin apardığı bir davahesab etmək olmaz. Bu davanı fərdlərə və ayrı-ayrı şəxslərə bağlamaq qətiyyən olmaz. Əlbəttə, bu da inkar edilməzdir ki, tarixdə ayrı-ayrı şəxsiyyətlərin (alimlərin, şairlərin, ictimai-siyasi xadimlərin) müəyyən qədər rolu var. Amma, unutmaq olmaz ki, tarixi şəxsiyyətlər yarada və dəyşə bilməzlər. Bu bir aksiomadır ki, tarixi yalnız dahi şəxsiyyətlərin söylədiyi ölməz ideyalara əsaslanan nəsillər yarada, yeniləşdirə-yeniləşdirə, bir-birinə ötürə-ötürə libasını dəyişə bilərlər. Yəni bu o deməkdir ki, demokratik dövlətlər ölməz ideyaların nəsillərdən nəsillərə ötürülməsinə şərait yaradan dövlətlərdir.Ona görə də Güney və Quzey Azərbaycanında Məhəmməd Əmin Rəsulzadənin "Azərbaycan davası" əsərində deyildiyi kimi normal şəraityaradılarsa nəsillərin apardığı Azərbaycan davasıheç də anarxiya deyil, çətin həll elənməsi mümkün olan çətin və ciddi məsələdir.Belə sağlam ideyaları nəsillər gələcək nəsillərə ötürərkən olduqca ehtiyatlı davranmalıdırlar. Yoxsa, Demokratiya anarxiyaya çevrilər, nizam-intizam itər, haqqın yerini nahaq, halalın yerini haram tutar, nəticədə murdar və qorxunc diktatura yenidən baş qaldırar, daha amansızlıqla sosial ədaləti pozar, daha həris tamahla itridiyi qazancın yerini doldurar, əhali arasında hər tərəfi yenidən ehtiyat, yoxsulluq səfalət bürüyər. Nəticəsi də indikindən qorxulu pandemiyalar və idarə olunmayan müharibələr olar.

***Məhz elə Abbas Lisani kimi azadlıq aşiqi, insanlıq vurğununu fars molla rejiminin məhkəməsi tərəfindən XXI əsrin 21-ci ilində uzun müddətli həbs edilməsi belə anormal dünya idarə etməsinin nəticəsi deyilmi? Əlbəttə, belə anormal idarə etmə belə Allahsızlıq heç də səbəbsiz deyildir. Qırmızı bolşevik Sovet İmperiyası keçən əsrin 90-cı ilinin əvvəlində dağılsa da, Rus sovonizmi dağılmadı. O əksinə daha qəzəblə püskürməyə başladı. Bunun da səbəbi Qırmızı Rus neobolşevik imperiyasın atom, hidrogen bombaları kimi qorxunc silahların olmasıdır. Ona görə də keçən bu otuz il müddət ərzində Rus sovonistləri dünyanın ən hegemon və demokratik dövlətləri ABŞ –la və NATO-nun üzvü olan Avropa dövlətləri ilə dartışır və bu dartışmanının bir mənfi təsiri də rus şovinistlərinin göstərişi ilə fars şovinistlərinin, fars molla rejiminin öz əhalisinin daha amansızlıqla (bu əhalinin əksəriyyəti oğuz türkləridir) daha amansızlıqla idareə etməsinə şərait yaradırlar.*** Nəticədə son 30 il ərzində islami ədəyərlərdən çox çox uzaq olan İran İslam Resöublikası adlanan bədnam respublika öz konistitusiyasında yazılan hər millətin öz dilində təhsil almaq hüququ var, bəndinə əməl etmir, İran İslam Respublikası adlanan şişirdilmiş şiəliklə hakimiyyətini idarə edir,fars mollaları Oğuz Türklərinə qarşı daha amansız rəftar edirlər.

Əmin bəy gənclik illərində Rus jandarrnları tərəfindən Qüzey Azərbaycanında təqib edildiyinə görə 1909 –cu ilin yazından Güney Azərbaycanının Tehran şəhərinə mühacirət etməli oldu. O, həmin dövrdə Seyid Həsən Tağızadə ilə birlikdə Seyid Məhəmməd Şəbüstərinin müdirliyi ilə "İrani-nov"qəzetini dərc etməyə başladı. O, təxminən iki ilə yaxın "İrani-nov"qəzetinin baş redaktoru oldu. Bu qəzetin ilk sayı 1909-cu ilin 23-ü avqustunda dərc olundu. Qəzet Qacarlar dövlətində yaşayan əhalinin ağır güzəranını və bu dövlətə çar rusiyasının, ingilis krallığının və digər avropalı ağaların cəsarətlə tənqid etdiyinə görə İranda ən demokratik qəzet sayılır və onun hər sayı əldən-ələ gəzdi, hər məqaləsi dillər əzbəri oldu. "İani-nov" qəzetinin xalq arasında belə sevildiyini görən çar rusiyası bundan bərk əndişələndi və "İrani-nov" qəzetinin nəşrinin dayandırılması üçün çar xəfiyyəsi və çar jandarmaları vasitəsilə redaksiyaya basqılar təşkil etməyə başladılar və redaksiyanın Məhəmməd Əmin bəy və Seyid Həsən Tağızadə başda olmaqla bütün üzvlərini təqib etdilər. Vəziyyətin ağırlığını görən Məhəmməd Əmin bəy həmin dövrdə "İrani-nov" qəzetinin bir sıra saylarında "Mətbuat azadlığı" adlı silsilə məqalələrini dərc etdirdi. O bu məqalələrdə demokratiyanın düşməni olan Rus Çarı II Nikalayı və onun yerli nökəri Qacarlar dövlətinin şahı əfəl Məhəmmədəli Mirzəni amansızcasızlıqla tənqid etdi. O, Məhəmmədəli Mirzənin Təbrizdən Odessaya qaçarkən Təbrizdə göstərdiyi son təlxəkliyi bir məqaləsində belə təsvir edirdi. Məhəmmədəli Mirzə rus kazaklarına nizamla düzülməyi və hərbi addımlarla irəliləməyi əmr edti. Rus kazaklarının bu nizamlı addımları Məhəmmədəli Mirzənin o qədər xoşuna gəldi ki, o rus kzaklarının bu nizamlı addımlarını bir də təkrar etməsini əmr etdi. Əlbəttə, çar Rusiyasının Qacarlar dövlətinə belə müdaxiləsi və Qacar hökmdarı Məhəmmədəli Mirzənin belə əfəlliyini Məhəmməd Əminin yeni İran qəzetində qələmə alması II Nikolayın və onun xəfiyyələrinin, jandarmlarının xoşuna gəlməzdi. Ona görə də onlar "İrani-no" qəzetinə öz təqiblərini daha da gücləndirdi. Vəziyyətin son dərəcə dözülməz olduğunu görən M.Ə Rəsulzadə Seyid Həsən Tağızadə "İrani-nov" qəzetinin müdüri Seyid Məhəmməd Şəbüstəriyə bu məzmunda məktub yazdı: "Möhtərəm müdir! Qarşılaşdığım maneələr ucbatından bir müddət qəzetçilikdən uzaqlaşmağa və bu səbəbdən də İrani tərk edərək xaricə getməyə məcburam. Ona görə də, kamali təəsüflə məqamından artıq bağlı olduğum əziz "İrani-nov" qəzetindən istefa verməyə məcburam. Xahişim budur ki, çarəsiz ayrılıqdan hasil olan təəsuratımı və təəlumatımı qəbul edəsiz və bu babətdən sizə, qələm yoldaşlarıma və "İrani-nov"un möhtərəm oxucularına narahatlıq üz verərsə bu istefaya məni görə əfv edin, hərəkətlərimə göz yumun və məni məzur tutun."

***Bəzi siyasi icmalçılar, sosioloqlar, palitoloqlar siyasətçilər, ictimai xadimlər və digər ziyalılar iddia edirlər ki, zəhərlənmiş Navalini Mandella Nilsonla müqayisə etdilər. Əslində Navalinlə Mandella Nilsonu müqayisə edilməzdir. Çünki, Mandella öz xalqının azadlığı və öz vətəninin sahibi olmaq uğrunda güllələnmək cəzasına və ömürlük həbsə layiq görülmüşdür. Navalin isə Napalyonun diliylə desək köhnə şimal tülküsü Putinin çapolçuluğundan, quldurluğundan, talançılığından dəm vurmuşdur. Əslində istər Putinin, istərsə də Putinin ətrafındakıların, istərsə Putin kimilərin belə olduğunu dünyada bilməyən yoxdur. Amma Mandella Nilsona həqiqətən Abbas Lisani bənzəyir. Axı Abbas Lisani öz məsləki və əqidəsi uğrunda dəfələrlə murdar və iyrənc fars molla rejimi tərəfindən həbs edilmişdir, hər dəfə bu haqsızlığa qarşı öa etirazını uzun müddət aclıq aksiyası keçirməklə bildirmişdir və dəfələrlə də dünyanın mütərəqqi təşkilatları tərəfindən vicdan məhbusu və siyasi fəal kimi dəyərləndirilmişdir. Doğrudan da, alçaq Çar rusiyası nəticəsində Azərbaycan iki yerə şaqqalansa da bu böyük bir xoşbəxtlikdir ki, Oğuz türkləri bəşəriyyətə Məhəmməd Əmin Rəsuızadə və Abbas Lisani kimi yenilməz və qüdrətli iki tarixi şəxsiyyət bəxş etmişdir.***

***Tarixlər boyu hər bir millətin mütəfəkkirləri, filosofları, şairləri, ictima-siyasi xadimləri milli davalarını öz ana diliində aparmaışdılar, aparırlar və aparacaqlar da. M.Ə.Rəsulzadə "Azərbaycan davası" əsərində deyirdi: Bu dava tarixi və milli bir davadır. Bu dava nə hökümət, nə parlament səviyyəsində ölçüləcəkkiçicik bir dava deyil, nə də bu davanı üç-beş - qısır kişinin apardığı bir davahesab etmək olmaz. Bu davanı fərdlərə və ayrı-ayrı şəxslərə bağlamaq qətiyyən olmaz. Əlbəttə, bu da inkar edilməzdir ki, tarixdə ayrı-ayrı şəxsiyyətlərin (alimlərin, şairlərin, ictimai-siyasi xadimlərin) müəyyən qədər rolu var***

(davamı gələn sayımızda)